# PIÇILTI



SEVİNC NURUQIZI

*Pıçıltılar... Əslində, təbiət pıçıltılarla doludur. Biz eşitmədiyimiz pıçıltılarla... Səsini insana çatdıra bilməyənlərin pıçıltısı ilə... Arzularını səmaya ötürənlərin, istəklərini ağ-gümüşü buludlara pıçıldayanların səsi ilə. Çiçəklərin, böcəklərin, küləklərin pıçıltısı ilə... Quşların, daşların, yağışların pıçıltısı ilə... Terrora, müharibəyə yox demək istəyənlərin pıçıltısı ilə...*

*Bu kitab – sözsüz danışanların pıçıltılarından bəhs edir. O, pıçıltıları sözlərə çevirib çatdırır... Bu kitab bizim görmədiklərimizdən, eşitmədiklərimizdən danışır. Anladır ki, terror və müharibə təkcə insanları deyil, bütün canlı və cansızları məhvə aparır.*

*Tural Axundov*

## Unutmayaq!

Terror – anaları ağrıdır.
Terror – uşaqları ağrıdır.
Terror – oyuncaqları ağrıdır.
Terror – bütün bəşəriyyət üçün ağrıdır.
Yer üzünün uşaqları, oyuncaqları və göyərçinləri terrora yox deyir!

S. N.

Sevinc Nuruqızı



# PIÇILTI



İdeya müəllifi və naşiri

**Tural AXUNDOV**

Rəyçi

**Elnarə AKİMOVA**

YAP İdarə Heyətinin üzvü, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Uşaq ədəbiyyatı" şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent

**N89** **Sevinc Nuruqızı.**
**Pıçıltı**. Bakı, "Təhsil", 2022, 88 səh.

N $\frac{4802000000}{053}$ 2022

ISBN 978-9952-518-39-9

© Sevinc Nuruqızı, 2022
© "Təhsil", 2022

## Ön söz

*Yaşamaq haqqı, sevmək və sevilmək haqqı, sevinmək haqqı... Hər insana Yaradandan verilmiş haqları terror bir gəlişində tapdalayır, məhv edir. Onun gəlişi ilə çiçəklər solur, quşlar pərən-pərən olur, evlər, ocaqlar dağılır. Sevgi yox olur, mərhəmət itir, səmimiyyət çiliklənir... Onun gəlişi ilə yer üzünün Günəşi sönür, buludları ağlayır...*

*Terror – bütün dillərdə eyni acını ifadə edir. Bütün ürəklərə eyni ağrını yaşadır. Terror – kiminsə qəddar düşüncəsindən doğur, kiminsə vəhşi planlarını həyata keçirir.*

*Sizə təqdim etdiyimiz bu kitab 2020-ci ilin oktyabrında, İkinci Qarabağ Savaşı zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən 5 dəfə ayrı-ayrı zamanlarda həyata keçirilmiş Gəncə terrorundan bəhs edir. Bu kitab terrorun bütün canlılara və cansızlara yönəlmiş ən qəddar silah olduğunun və ən qəddar insanlar tərəfindən törədildiyinin sübutudur.*



Portağal, Bozuş, Elza və Dovşan
terroristlərə məktub yazır

Gəncə terrorunun qurbanlarına ithaf edilir


Bu kitabın sahibi

## Küçə fənərlərinin işığında

Gecə qaranlığında küçə fənərlərinin zəif işığı közərirdi. Haradansa burula-burula toz qalxırdı. Toz burulğanı küçə fənərlərinin işığında parıldayan zərrələrə bölünür, bu zərrələr arasında şütüyən maşınlar, kədərli insanlar işarırdı. Böyük bir şəhərin tən ortasındakı evlərin xarabalıqları içində kimlərsə qaçışır, təşviş içində vurnuxan itlər ağızlarını səmaya açıb uzun-uzadı hürür, tüstülənən divarlar arasında iki pişik balası gəzişirdi... Onların bozumtul və hərəkətli kölgələri fənərlərin küçəboyu sızan ensiz işıq zolağında gah görünür, gah da yox olurdu. Yanmış dirəklərin altında qalmış uşaq çarpayısının sonuncu taxta arakəsməsi tüstüləyirdi. Narıncı pişik balası Portağal gözlərini yanan uşaq çarpayısına zilləyib, boz pişik balası Bozuşla söhbətləşirdi. Onlar gecənin tən yarısı, yerin-göyün şirin yuxuda olduğu bir vaxtda bir saniyə içində bu gözəl şəhərin işıqlı evlərinin dağıdılmasının səbəbini anlamağa çalışırdılar.

Portağal:

– Myaoooo... Aylinin çarpayısıdır. Myaoo, Bozuş, eşidirsən məni? Deyirəm ki, o dirəklər arasında tüstülənən çarpayı Aylinin çarpayısıdır.





Bozuş da elə Portağalın baxdığı istiqamətdə baxırdı və gözlərini ayırmadan dedi:

– Eşidirəm, Portağal... Myaooo... Görürəm. Aylinin çarpayısıdır. Amma Aylin içində yoxdur. Portağal, bilirsən, nə istəyirəm?! – Portağal onun sualına cavab vermədi. Bozuş davam etdi. – Ağlamaq istəyirəm... Hönkür-hönkür, ürəkdən. Sən də ağlamaq istəyirsən?

Portağal göz qaraldıqca uzanan dağıntılara baxıb dedi:

– Hə, gözlərim yaşarıb. Bəlkə, tüstüdəndir? Mən bilmirəm axı, ağlamaq necə hissdir. Sən heç ömründə ağlamısan, Bozuş?

Bozuş boynuna aldı:

– Yox, heç vaxt ağlamamışam... İlk dəfədir, Portağal. Yəqin, Aylinə görə... Mədinəyə, Nigara, Narinə, Məryərmə, Orxana, Artura görə... Ən çox uşaqlara yazığım gəlir. Sən bilirsən ki, sabah qonşu qız Nigarın 15 yaşı tamam olacaqdı. Bütün uşaqlar onun ad gününə toplaşacaqdı.

Portağal, doğrudan da, kövrəldi:

– Bilirəm. Amma mən bayaqdan baxıram, Nigarı görmürəm. Nigar yoxdur. Uşaqların heç biri gözümə dəymir, Bozuş...

*Dağılmış evlərin arasında gərgin iş gedirdi. Adamlar həyəcan və təşvişlə daşları qaldırır, dağıntıların içində qalmış insanları çıxardırdılar. Təcili tibbi yardım maşınları yaralıları xərəklərə qoyub xəstəxanalara tələsirdi. Bu çətin anda hər saniyə qiymətli idi. Hər ötən an hansısa bir insan həyatını itirə bilərdi. Cəld və diqqətli olmaq lazım idi.*

*Portağal:*

*– Bozuş, sən başa düşürsən, nə baş verib?!*

*Bozuş:*

*– O qədər də yox. Amma bilirəm ki, baş verən hadisə çox dəhşətlidir. Mən yatmışdım.  Bilmirəm, saat neçə idi. Amma gecə idi. Hamı yatmışdı. Ev silkələndi... Partladı...*

*Hələ də partlayışın təsiri altında olan Portağal da o dəhşəti təsvir etməyə çalışdı:*

*– Hə, partladı... Çox pis partladı. Gurultu ilə... Bum... Baraxxx... Göy gurultusundan da dəhşətli idi...*

*Bozuş:*

*– Sən də yatmışdın, Portağal?*

*Portağal:*

*– Yox. Sadəcə gözümü yummuşdum. Mürgüləyirdim. Düşünürdüm. Qəfildən...*

*Bozuş:*

*– Hə, hə, qəfildən hər şey partladı, dağıldı, yandı... Vəssalam. Bildiklərim bu qədər.*





*– Myaooo... Bozuş, mən gözlərimi açdım... Baxdım, baxdım... Ev yox idi. Yekə, ağappaq ev yox idi. Təsəvvür edirsən, Bozuş?! Həmişə ləzzətli xörəklər hazırlanan mətbəx yox idi. Aylinin yatdığı çarpayı havada uçurdu...*

*Bozuş:*

*– Çarpayı?*

*Portağal:*

*– Hə, Aylinin çarpayısı... Yəni bizim dostumuzun... Bax o daşların altında közərən çarpayı...*

*– Bəs Aylin? O haradaydı?*

*– Bilmirəm, Bozuş, bilmirəm. Bildiyim odur ki, ağappaq ev toz kimi göyə sovrulmuşdu. Yerində daş, dəmir, taxta parçaları ilə dolu yekə bir çala qalmışdı. Başqa heç nə...*





*Bozuş:*

*– Görəsən, kim uçurtdu evi? Bəlkə, yekə fil gəlib, xortumu ilə “baraxxx”... dağıdıb.*

*Portağal:*

*– Fil?! Yox, inanmıram. Fillər xeyirxahdır...*

*Bozuş həyəcandan quyruğunu qaldırıb, gözlərini bərəltdi:*

*– Bəlkə, əjdahaaa... Yeddibaşlı, alov püskürən əjdaha. Məsələn, Aylinin nağıl kitabındakı əjdaha.*

*Portağal:*

*– Myaooo... Nə danışırsan?! Əjdaha uşaqların yaşadığı evi yandırmaz...*

*Bozuş bir az düşündü:*

*– Tapdımmmm... Dinozavr... Dağ boyda. Uçan dinozavr. Uçub. Gecə duman olub. Gözü heç nə görməyib və... Tapppp... Çırpılıb divara...*

*Portağal:*

*– Bozuş, tapmadın. İndi dinozavr yoxdur. Bütün dinozavrlar çoxdan yox olub. Düşünmək lazımdır. Ən böyük heyvan hansıdır?!*

*Bozuş:*

*– Ən vəhşi...*

*Portağal:*

*– Ən qəddar...*

*Bozuş:*

*– Ən yırtıcı...*


PRESS
PRESS
CNN
TÜRK
PRESS

*Dağılan evlərin arasında əlində kamera olan oğlanla mikrofon tutmuş bir qız gəzişirdi. Qız həyəcandan titrəyirdi. Bu, CNN Türk telekanalının əməkdaşı Fulya Öztürk idi. O ağlayır, əli ilə gözünün yaşını silir və danışırdı:*


ESS
CNN
TÜRK

– Terroristlər... Gəncədə gecəylə dinc insanların yaşadıqları evləri dağıdıblar... Terroristlər... İnsanlar dağıntılar altındadır... Onların arasında uşaqlar da var... Mən onların iniltisini eşidirəm. Baxın... Yaxşı baxın. Qoy bütün dünya bu oğlanı görsün. – Fulya mikrofonu yenicə dağıntılar arasından çıxardılmış balaca oğlana yaxınlaşdırdı. – Sənin adın nədir?

Uşaq titrəyirdi. Amma o çox güclü idi. Çətinliklə də olsa, gülümsədi, qorxduğunu üzə vurmamağa çalışdı, titrəyən və qurumuş dodaqlarında kədər və təbəssümlə pıçıldadı:

– Bəxtiyar.

– Neçə yaşın var?

– Beş...

– Gülümsəyirsən... Sən çox güclüsən, Bəxtiyar. Çox güclüsən.





## Portağalla Bozuş düşünür



Portağal qulaqlarını şəklədi. Jurnalist qızın dediklərinin bir kəlməsini belə qaçırmamağa çalışdı:

– Bozuş, eşitdin?

Bozuş:

– Nəyi?!

Portağal:

– Qızın dediyini.

Bozuş:

– Hansı qızın?!

Portağal:

– Düz bax... Bax... Gördün?! Bax, o qızın.

Bozuş Fulya dayanan tərəfə baxdı:

– Gördüm.

Portağal eşitdiklərini olduğu kimi Bozuşa çatdırmağa tələsdi:

– O qız dedi ki, evləri terroristlər dağıdıblar... O dedi ki, Gəncədə gecəylə dinc insanların yaşadıqları evləri dağıdıblar... Terroristlər...

Bozuş eşitdiyi sözü beyninin müxtəlif nöqtələrindən keçirdi:

– Hmmm... Terrorist hansı heyvandır? Axı mən "terrorist" – heyvan adı eşitməmişəm.



Portağal da onun kimi:

– Yəqin, ən böyük və ən yırtıcı heyvandır... Adını eşitmədiyimiz heyvan.

Bozuş:

– Myaooo... Təəccüblüdür.

Portağal düşündü. İnana bilmədi:

*– Terrorist... İnanmıram. Ən yırtıcı heyvanlar da uşaqların evini dağıtmaz... Yəni terrorist olmazlar. Məsələn, Bozuş, sən nə vaxtsa terrorist ola bilərsən?*

*Bozuş həyəcanla geri sıçradı. Əvvəlcə Portağalın üstünə atılıb, dalaşmaq istədi. Sonra düşündü ki, Portağal da onun kimi beynində dolaşan suallara cavab tapmaq istəyir:*

*– Yox, Portağal. Əlbəttə, yox. Heç vaxt. Bəs sən?*

*– Mən də, Bozuş. Bəs terrorist kimdir axı?*







Bozuş:

– Yəqin, terrorist ən, ən, ən, ən yırtıcı heyvandır...

Portağal büzüşdü. Quyruğunu qısdı:

– Bozuş, mən çox qorxuram terroristdən.

Bozuş cəsarətlə oturduğu daşın üstündən yerə tullandı:

– Qorxma, mən yanındayam.

Portağal Bozuşa baxdı. Qəzəbli üzündə təbəssüm yarandı:

– Kim? Sən? Sənin boyun məndən balacadır. Sən məni qoruya bilərsən?

Bozuş:

– Boyum balaca olsa da, gücüm çoxdur. Bax...

Bozuş pəncələrini yanlara doğru dartıb, belini qabartdı. Portağalın üstünə atıldı.

Portağal:

– Ey... Dayan, nə edirsən? Terrorist...

Bozuş:

– Nə?! Terrorist... Hmm... Myao... Portağal, mən sənə hücum etdim, sən də mənə terrorist dedin. Terrorist... Tapdımmm...

– Nəyi?!

– Qulaq as, Portağal, mən kəşf etdim. Deyirəm, bəlkə, terrorist yırtıcı və vəhşi heyvan deyil...

Portağal:

– Bəs kimdir? Bəlkə, damdabaca... Və yaxud qulyabanı?

Bozuş:

– Bir az da düşünsən, taparsan...

*Portağal:*

*– Mmmm...  Bəlkə, yadplanetli?*

*Bozuş:*

*– Məncə, yox...*

*Portağal:*

*– Bəs nədir? De, tez elə...*

*Bozuş:*

*– Deyirəm, bəlkə, terrorist – vəhşi və yırtıcı insandır... O, günahsız insanlara hücum edir. Evləri dağıdır, insanları öldürür, avtobusları partladır. Myaoooo...*

*Portağal:*

*– İnsan... Və terrorist... İnsan və terrorist... Terrorist insan. Hə. Doğrudur. Bozuş, sən necə ağıllısan...*





## Portağalla Bozuş gəlincik Elzanı necə xilas etdi?

*Portağal və Bozuş oturub gözlərini dağıntılara zilləmişdilər. İkisi də kədərli idi. Nə edəcəklərini bilmirdilər.*



Tüstülənən dirəklərin üstünə bir ağ göyərçin qondu. O, çəhrayı ayaqlarının birini götürüb, o birini qoydu, yanan dirəyin istisinə dözə bilmədi.



Uçub daşların üstünə qondu, onların arasında bir xeyli gəzişdi, qanadlarını daşlara çırpdı. Sonra qapqara muncuq kimi gözləri bir nöqtəyə dikildi. Həyəcanlandı. Qanadlarını geniş açdı. Özünü toz-torpağın içinə vurdu. Ağappaq lələkləri toza bulaşdı. Başı ilə nəyisə kənara itələdi. Çalışdı, çabaladı... Və dimdiyi ilə daşların arasından bir uşaq papağı çəkib çıxartdı. Papağı götürüb uçdu...

Bozuş göyərçinin dalınca baxdı:

– Uçdu... Onun gücü bir uşaq papağını çıxartmağa çatır. Hamı nə isə edir, Portağal. Bir biz qalmışıq...



*Portağal gözünü dağıntılar arasında çalışan xilasedicilərdən ayırmadan dedi:*

*– Bozuş, elə mən də o haqda düşünürdüm. Kaş biz də insan olaydıq.*

*– Niyə ki?! Portağal, məncə, pişik olmaq daha yaxşıdır.*

*Portağal:*

*– Bozuş, mən də ilk dəfədir ki, insan olmaq istəyirəm. İnsan olsaydıq, indi o dağıntılar altında qalanları xilas edə bilərdik...*

*Bozuş razılaşdı:*

*– Doğrudur. Amma...*

*Portağal onun sözünü kəsdi:*

*– Nə amma?*

*Bozuş fikrini izah etdi:*

*– Deyirəm ki, insan olsaq, terrorist də ola bilərdik. Amma heyvan-terrorist olmur. Yox e... Yaxşısı budur, elə pişik olaq...*

*– Pişik olmaq bəzən yaxşıdır, bəzən pis... Günün böyük hissəsini yata bilirsən... Myaoooo... Hara istəsən, tullana bilirsən...*

*Bozuş:*

*– Hasarların üstündə gəzə bilirsən...*

*Portağal:*

*– Hə... Hə. Ən sevimli əyləncə də elə odur... Amma daha bu tərəflərdə üstündə gəzməyə hasar da qalmadı... Hamısı dağıldı.*

*Bozuş:*

*– Bəs pişik olmağın nəyi pisdir ki?!*

*Portağal asta səslə izah etməyə başladı:*

*– Bax, indi insanlara kömək etmək lazımdır. Amma biz bacarmırıq. Bu pisdir... Hə, Bozuş? Baxıram, baxıram, düşünürəm ki, mən də kömək edə bilsəydim... Eyyy, Bozuş, mənə qulaq as!*

Bozuş onu eşitmədi. Portağal onun yanına getdi, dayanıb düz gözlərinin içinə baxmağa başladı. Sonra pəncəsini qaldırıb, onun gözlərinin qarşısında yellədi. Bozuş özünə gəldi. Gözlərini baxdığı nöqtədən ayırıb sevinclə dedi:

– Portağal, tapdımmm...

– Nə düşündün yenə də?!

Bozuş dilləndi:

– Deyirəm ki, biz insan olmasaq da, olar. Bax, bayaq göyərçin bir körpənin papağını çıxartdı dimdiyi ilə... O, quş kimi kömək etdi. Gəl biz də pişik kimi kömək edək.

Portağal təəccübləndi:

– Pişik kimi? Myaooo... Necə yəni? Pişik kimi necə kömək edə bilərik axı?

Bozuş:

– Gəl biz də oyuncaqları xilas edək... Onlar da daşların arasındadır. Yəqin, əziliblər.

Portağalın gözləri parıldadı:

– Oyuncaqları?! Sən dahisən, Bozuş... Sən Günəşsən, Bozuş... Düzdür, Günəş boz rəngdə olmur, amma sənin beynin Günəş kimi işıqlıdır... Oyuncaqları xilas edək... Bəs niyə dayanmışıq?! Getdik...

Portağalla Bozuş dağıntıların arasında çətinliklə də olsa, irəliləməyə başladılar. Arabir daşlara dəyib yıxılsalar, yumalansalar da, yenə özlərində güc tapıb qalxır və axtarışa davam edirdilər.

Portağal toz-torpaq dolmuş gözlərini ovuşdurur, sonra diqqətlə irəli baxır və deyirdi:

– Hər tərəf duman içindədir. Heç nə görmürəm... Amma sağ olsun küçə fənərləri... Onların işığı kömək edir.

*Bozuş:*
*– Mən də küçə fənərlərinə minnətdaram...*

*Küçə fənəri,*
*Parılda bir an...*
*Bir az gülümsə,*
*Bir az işıqlan...*

*Küçə fənəri,*
*Nə xeyirxahsan.*
*Səninlə hər çətin*
*İş olur asan.*



*Portağal:*

*– Afərin, Bozuş... Küçə fənərinin işığı artdı elə bil. Yəqin, sənin şeirin xoşuna gəldi... Aaa... Bozuş, bax... Mən daşların arasında mavi rəng görürəm...*

*Bozuş heç nə anlamadı:*



– Hə, nə olsun ki... Mavi rəng. Hə?! Myaooo...

Portağal təəccübləndi:

– Unutmusan? Gəlincik Elzanın donu mavi idi axı... Elza, sən daşların altındasan... İndi gəlirik...

Bozuş döyüşə hazır vəziyyət aldı:

– Sevimli gəlincik Elza, indi biz səni xilas edəcəyik. Myaooo... Portağal, nə edək? Elza daşın altındadır.

Portağal da qarşısındakı böyük daşa baxdı:

– Bozuş, daşı tərpətsək, yol açılar... Elzanı xilas edə bilərik. Başladıq... Bir, iki, üç. İtələ, Bozuş.

Bozuş var gücü ilə itələdi. Sonra yenidən bir də:

– Gücümmm çaatmır... Portağaaal...

Portağal:

– Bir də. Bir də. Bir də... Aha. Lap az qaldı...

Bozuş:

– İtələyirəmmm... Biz buradayıq, Elza. Portağal və Bozuş – güclü və cəsur pişiklər...

Onlar alınlarını daşa dirəyib, var gücləri ilə daşı yerindən tərpətməyə çalışdılar. Hər tərəf tüstü və toz içində idi. Portağalın rəngi artıq Bozuşdan seçilmirdi... Yenidən daşı irəli itələdilər. Daş sanki azacıq tərpəndi.

Portağal sevindi:

– Alınır, Bozuş. Alınır...

Bozuş:

– Məncə də, dooos-tuuuum, bir də...

Nəhayət, daşı yuvarladıb kənara aşırda bildilər. Pişik balaları həyəcanla daşın yerini təmizləməyə çalışdılar.

Portağal:

– Booozuş, burada şüşə qırıntıları var. Ehtiyatlı ol, pəncəni yaralayarsan...

Bozuş:
– Qorxma. Portağal, bax, Elza...
Portağalla Bozuş dağıntılar arasından görünən Elzanın donunun yanıb qaralmış ətəklərindən tutub çəkməyə başladılar.
Portağal xatırlatmağı özünə borc bildi:
– Bozuş, unutma, xilasedicilər xilasetmə işlərinin aparılma qaydasını bilirlər, sən bilmirsən. Bax, Elzanın qolu taxtaya ilişib. Sən isə onu çəkirsən. Çəkmə... Qolu çıxıb qalacaq orada...
Bozuş razılaşmadı:
– Yox... Sən bilmirsən. Mən ehtiyatla çıxardıram. Yazıq Elza... İndi qolu ağrıyır, yəqin...
Portağal:
– Sən burada dayan, mən girim daşların arasına, Elzanın qolunun ətrafını təmizləyim. Sonra sən çək onu yuxarı...
Portağal daşların arasına tullandı. Ehtiyatla Elzanın qolunun üstündəki daşı itələməyə çalışdı... Sonra kənardakı daşı tərpətdi. Daha sonra taxta parçalarını. Dodaqlarının arasında durmadan pıçıldayırdı:
– Elza, qorxma. Myaooo. Mən səni incitmərəm. Çünki mən terrorist deyiləm. Tanıdın məni? Portağalam. Aylinin narıncı pişiyi...
Nəhayət, Portağal sonuncu daşı da itələyib kənara yuvarladı... Daşların kənarları və qırılmış şüşə parçaları onun pəncələrini əzmişdi. Elza kədərlə Aylinin sevimli narıncı pişiyinə baxıb dedi:
– Portağal, pəncən yaralanıb.
Portağal:
– Myaooo, eybi yox. Əsas odur ki, səni xilas edə biləcəyik. Bozuş, çək!
Bozuş pəncəsini çalaya uzatdı. Elzaya baxıb dedi:

– Elza... İndi səni çıxardacağam... Qoy donundan tutum... Portağal, sən də qaldır... Bir, iki, üç... Dartdıq...

Onlar Elzanı çıxartdılar. Hər üçü sevinirdi. Elza pişiklərə diqqətlə baxdı:

– Sağ olun... Siz əsl dostsunuz, Portağal və Bozuş... Amma sizi tanımaq olmur. Bozuş da bozdur, Portağal da. Bəlkə, mənim gözlərim zədələnib. Yaxşı görmürəm. Portağalll...

Portağal:

– Buradayam, Elza. Mənəm də, tanımadın? Aylinin narıncı pişiyi.

Bozuş da təəccüblə Portağala baxdı. Gözlərini bərəltdi. Quyruğunu qaldırdı: – Portağal, xəbərin var? Sən boz rəngdəsən. Narıncıdan heç



bir əlamət yoxdur. Bozuş olmusan, ahhahaha... Mən Bozuş-1, sən Bozuş-2... Myaoooo...

Portağal:

– Bozuş-2 yox, tüstülü, tozlu və çirkli Portağal olmuşam. Yuyunmaq lazımdır. Amma bundan daha vacib işlərimiz var. Oyuncaqları xilas etməliyik axı...

Elza küçəboyu uzanan xarabalıqlara baxdı. Gözləri kimi isə axtardı. Tapa bilmədi.

Portağal soruşdu:

– Elza, kimi axtarırsan?!

– Aylini... Aylini istəyirəm, haradadır, görəsən?



Portağal da, Bozuş da kədərlə çiyinlərini çəkdilər... Bozuş çıxış yolunu nəğmə oxumaqda gördü:

Küçə fənəri,
Parla, günəş ol...
İşığa bələnsin
Aylin üçün yol...

Sənin işığında
Axtarıb, tapaq...
Qalmasın çətində
Heç bir oyuncaq.









## Göyərçin Dovşana kömək edir

*Oyuncaqları xilas etmək üçün çox çalışdılar. Gücləri get-gedə tükənirdi. Amma heç kəs yorulduğunu boynuna almaq istəmirdi. Artıq Dovşan da xilas olunmuş və xilasetmə işlərinə qoşulmuşdu. İndi hamı birlikdə dağıntılar arasında dolaşır, yorğun və yuxulu halda əyilib hər daşın altına baxırdılar. Göyərçin də onların yanında idi. Gah daşların üstünə qonur, gah qanadlanıb havaya qalxırdı.*





Qəfildən Portağalın gözü Dovşana sataşdı. O halsız idi. Səndələyirdi. Az qala, yıxılacaqdı:

– Dovşana təcili yardım etmək lazımdır. Qarnının tikişləri sökülüb, içindəki pambıqlar çıxıb tökülür... O artıq gəzə bilmir. Ey, eşidirsiniz? Dovşana kömək etmək lazımdır.

Bozuş ciddi şəkildə etiraz etdi:

– İndi mümkün deyil. Çünki hələ xilasetmə işləri davam edir. Dovşan, sən yaralısan. Tərpənmə, bir tərəfdə uzan, qal. Yoxsa bizim işimizə də mane olacaqsan. Özünü də elə vəziyyətə gətirəcəksən ki, sonra səni həyata qaytarmaq çətin olacaq.

Dovşan kənarda qalmaq istəmədi:

– Yox, mən otura bilmərəm. Dostlarımı xilas etməliyəm. Birlikdə çalışaq.

Portağal onu yola gətirməyə çalışdı:



– Axı sən yaralısan, Dovşan.

Dovşan onları sakitləşdirməyə çalışdı:

– Siz narahat olmayın. Getdik, uşaqlar. Son nəfəsimə qədər çalışacağam.

Bozuş:

– Son pambıqların tökülənədək...

Dovşan:

– Əlbəttə, son pambıqlarım tökülənədək.

Göyərçin qonduğu daşın üstündə bir xeyli gəzişdi, sonra yenidən havaya qalxdı. Uçub bir dövrə vurdu. Sonra daha bir dövrə... Toz burulğanı arasında gözdən itdi. Az keçdi, yenidən havada göründü. Qalxdığı sürətlə yerə endi. Daşdan-daşa hoppanıb Dovşanın qarşısında dayandı. Dimdiyində bir topa pambıq var idi.







Portağal qışqırdı:

– Baxın... Göyərçin haradansa pambıq tapıb gətirib. Dovşan, sənin üçün...

Dovşan kövrəldi:

– Sağ ol, Göyərçin. Ver mənə...

O, Göyərçinin dimdiyindəki pambığı alıb qarnına doldurmaq istədi. Amma alınmadı. Pambıq sökülmüş tikiş yerindən çıxıb yerə düşdü. Dovşan çətinliklə də olsa, gülümsədi:

– Çox sağ ol, Göyərçin. Amma biz tələsməliyik. Məndən daha çətin vəziyyətdə olanlar var. Onları xilas etmək üçün.


PRESS



## Portağal Aylinin ətrini alır

*Onlar yıxılmış evlərin xarabalığında dolaşırdılar. Əlində mikrofon olan bayaqkı qız lap yaxınlıqda idi. Fasiləsiz danışırdı. Bütün baş verənləri olduğu kimi, tez və ətraflı bütün dünyaya çatdırırdı:*

*– Onlar gecə yatmış dinc insanları acımasızcasına məhv ediblər. Onlar qocaları, qadınları, uşaqları dağıntılar arasında qoyublar. Terroristlər... Vəhşilər...*

*Fulya Öztürk danışa-danışa irəliləyir, qarşısına çıxan hər daşın altına göz gəzdirirdi. Qəfildən gözü Dovşana sataşdı:*

*– Oyuncaqların günahı nə idi?! Bir baxın. Yazıq Dovşan. Görün nə vəziyyətdədir... Amma o hələ də gülümsəyir...*



Portağal qaçdığı yerdə dayandı. Yerində fırlandı:

– Bozuş, burnuma Aylinin ətri gəlir.

Dayanıb havanı iylədi. Göz bəbəkləri sürətlə gedib-gəldi. Quyruğunu sağa-sola yellədi.

Bozuş həyəcanlandı:

– Aylinin ətri... Aylinin ətri. Mən də hiss etdim. Aylin... O haradasa, buralardadır, Portağal. Aylinnnnn...

Portağal hiss etdiyi iyin izinə düşüb irəlilədi:

– Aylindən ya çiyələk ətri gələrdi, ya vanilli dondurma, ya da südlü şokolad ətri. Çatıram... Çatıram, Aylin. Portağal gəlir... Sənin sevimli narıncı pişiyin...

Bozuş:

– Bozuş da gəlir. Sənin narıncı pişiyindən daha sevimli olan boz pişiyin...

Onlar ağlını itirmiş kimi daşların arasında fırlanır, başlarını ora-bura uzada-uzada gəzirdilər. Qəfildən Portağal vəhşi miyoltu saldı:

– Myaoooo... Bax, Bozuş. Tez gəl, Aylin buradadır. Aylin, Aylin, cavab ver, sağsan, Aylin?!

Bozuş:

– Aylin, sağsansa, gülümsə... Bax, Portağal, gülümsədi. Aylin sağdır. Sağdır... Urrraaaaa...

Portağal diqqətlə Aylinə baxıb Bozuşa sual verdi:

– Çıxarda bilərik?

Bozuş:

– Məncə, yox... İnsanlar ağır olur. Onlar oyuncaq deyil axı. Elza, Dovşan, Göyərçin, gəlin bura... Aylini tapmışıq...



Portağal hoppana-hoppana Aylini tapdıqları yerin ətrafında dövrə vurdu:

– Tələsmək lazımdır. Bəlkə, yaralıdır. Mən qaçım köməyə kimisə çağırım.

Bozuş razılaşdı:

– Getdik. Elza, siz bizi burada gözləyin. İndi gəlirik.

Elza:

– Qaçın, Portağal, Bozuş. Xahiş edirəm. Tələsin.

– Əyilib çalaya baxdı. – Aylin, necəsən? Aylin. Danış da, nə olar?! Niyə dillənmirsən? Bax, bu mənəm, Elza, bu da Dovşan... Göyərçin də bizimlədir.

Aylin çətinliklə də olsa, Elzaya cavab verdi:

– Elza... Dovşan... Qorxmayın, yaxşıyam... Amma tərpənə bilmirəm. Hər tərəf daşdır...





## Portağalla Bozuş insanları başa salmağa çalışır

*Portağalla Bozuş adamların arasında gəzməyə başladılar. Adamlar ağır-ağır daşları qaldırırdılar. Həyəcan və təşviş içində idilər. Kimi başını əlləri ilə tutub oturmuşdu. Kimi ətrafdakıları köməyə çağırırdı. Kimi də evindən çıxartdığı yeganə qiymətli əşyanı – üçrəngli bayrağı doğma balası kimi sinəsinə sıxıb dayanmışdı.*





*Kimsə Portağalı ayağı ilə itələdi:*

*– Çəkil, ay pişik. Əl-ayağa dolaşma.*

*Portağal miyoldadı:*

*– Myaoooo... Adamlar, Aylin oradadır. Daşların arasında... Ey... Sizinləyəm. Niyə pişiklərə əhəmiyyət vermirsiniz?! Görmürsünüz, nə isə demək istəyirik?*

*Bozuş Portağala kömək etmək istədi:*

*– Balaca qız Aylin. Tanıyırsınız, onu? Bacısı da var idi... Mədinə. Myaooooooo... Bax buradakı evdə yaşayırdılar... Biz Aylini tapmışıq... Aylini...*

*Xilasedici heç nə başa düşmədi:*

*– Çəkilin də, ay pişiklər. Qoyun işimizi görək.*

*Portağal əl çəkmədi:*

*– Myaooo... Hara çəkilək, axı?! Nə olar, anlayın da bizi. Aylin oradadır. Daşların altında. Gəlin çıxardın.*

*Xilasedicilərin işi çox idi. Lap başlarını itirmişdilər. İndi dağıntılar arasında qalan hər bir insanın həyatı onlardan asılı idi. Onlar tələsirdilər. Maşın və insan səsindən qulaq tutulurdu. Təcili yardım maşınları işıqları sayrışa-sayrışa aramsız gedib-gəlirdi... Portağalla Bozuş qışqırmaqdan yorulmuşdular. Onların miyoltusu bu səs-küyün içində heç kəsin diqqətini cəlb etmirdi. Əlacsız qalıb yaxınlıqdakı daşın üstünə çıxdılar.*


PRESS



Diqqətlə ətrafa baxdılar. Qəfildən Portağalın gözünə əlində mikrofon olan qız dəydi. Qız yenə də əlindəki mikrofonla tələsik nələrsə deyirdi.

## Portağal çıxış yolu tapır

Portağal daşın üstündən yerə tullanıb qıza tərəf qaçdı. Qızın ətrafında fırlanmağa başladı. Hoppanıb-düşdü. Qızı başdan-ayağa nəzərdən keçirdi. Qəfildən ayaqqabısının iplərinə gözü sataşdı. Beyninə ilk gələn fikri həyata keçirməyə başladı: “Bax bu əla oldu. Tutacağam ayaqqabısının ipindən, çəkib Aylin olduğu yerə aparacağam. Təpikləsə də, buraxmayacağam”.

Portağal irəli atıldı. Qızın ayaqqabısının ipini tutmağa çalışdı. Bir-iki dəfə cəhd etdi. Sonuncu cəhddə alındı.

Fulya ayaqqabısının ipindən tutub çəkən pişikdən canını qurtarmağa çalışdı:

– Ey, pişik, nə edirsən?! Pişik, səninlə deyiləm?! Yıxacaqsan indi məni.... Yaxşı da, qaçma. Gəlirəm. Elə get ki, sənə çata bilim...

Bozuş onların ardınca qaçır və elə hey təkrarlayırdı:

– Portağal, miyoldama ha... Eşitdin?! Myaoo eləsən, ayaqqabının ipi çıxacaq ağzından...

Nəhayət, çatdılar. Bozuş sürətlə Aylinin olduğu yerə cumdu. Miyoldadı. Atılıb-düşdü. Portağal Fulyanın ayaqqabısının ipini buraxdı.





*Fulya pişiklərin hərəkətindən şübhələndi. İrəli gəlib, daşların arasına baxdı. Oradan gələn zəif iniltini eşitdi. Həyəcanlandı:*

*– Dayanın, baxım. Orada kim var? Aman Allah, burada balaca qızcığaz var ki... Siz tapmısınız onu?! Ağıllı pişiklər...*

*Fulya xilasedicilərin yığışdığı yerə tələsdi. Onlara çatdı. Əli ilə pişiklərin onu apardığı tərəfi göstərdi... Qışqırdı. Sonra xilasedicilər bu yerə axışdılar. Daşları qaldırmağa, dirəkləri yanlara atmağa başladılar. Tez bir zamanda dağıntıların arasından Aylini çıxartdılar. Təcili yardım maşını uğuldaya-uğuldaya onlara yaxınlaşdı. Xilasedici Aylini sakitləşdirməyə çalışdı:*

*– Döz, balam, döz. İndi rahatlanacaqsan... Döz, körpə. Lap az qalıb...*


PRESS
PRESS

*Fulya tələsə-tələsə danışdı:*

*– Baxın. Burada baş verən dəhşətlərə yaxşı baxın. Gəncə terroru düşmənlərin iç üzünü açdı. Terroristlər... Onlar günahsız insanların yaşadığı evləri dağıtdılar...*






*Aylini təcili yardım maşınına yerləşdirdilər. O bütün gücünü toplayıb xilaskar pişiklərinə sadəcə gülümsünə bildi.*


103


103
103

*Dovşan oturduğu daşın üstündən yıxıldı. Pişiklər təşvişə düşdülər. Portağal cəld atılıb onu qaldırmağa çalışdı:*

*– Dovşan, sənə nə oldu?! Bayaq dedim axı, sən hərəkət etmə.*

*Bozuş onun halına acıdı:*

*– Qarnındakı bütün pambıqlar tökülüb. Ona görə yıxılırsan...*

*Dovşan qalxıb oturmaq istədi. Güclə danışdı:*

*– Heç nə olmaz. Dözəcəyəm...*

*Portağal, Bozuş, Elza və Dovşan daşların üstündə oturub, uzaqlaşmaqda olan təcili yardım maşınının dalınca baxdılar. Portağal dostlarına dedi:*

*– Aylini apardılar...*

*Bozuş onları sakitləşdirdi:*

*– Həkimlər onu sağaldacaq.*

*Elza arzularını dilə gətirdi:*

*– Sağaldacaqlar Aylini. Mütləq sağaldacaqlar. Bizim yenə də ağ evimiz olacaq. Gecələr Ay işığında ulduzları seyr edəcəyik. Səhərlər qaranquşlar eyvanımıza qonacaq.*

*Dovşan da Elzaya qoşuldu:*

*– Ağ evin həyətində meyvə ağacları bitəcək.*



*– Və biz o ağ evdə əvvəlki kimi xoşbəxt yaşayacağıq. Hər səhər günəş çıxacaq. Onun şəfəqləri pəncərələrdə işıldayacaq... Ətrafımızda ağ göyərçinlər uçuşacaq.*

*Bozuş:*

*– Hər axşam Aylinin nənəsinin danışdığı nağılları dinləyə-dinləyə yuxuya gedəcəyik.*

*Göyərçin daşın üstündə o tərəf-bu tərəfə getdi:*

*– Aylin yenə də pəncərənin ağzına quşlar üçün qızılı rəngdə dən səpəcək... Buğda dənələri Günəş işığında par-par yanacaq...*





*Onlar bir anlıq bu ağır mənzərədən ayrılıb arzuların qanadında uçmağa başladılar... Arzular o qədər gözəl idi ki...*

*Ən tez Portağal özünə gəldi. Şirin xəyallara dalan gözlərini açıb ətrafa baxdı. Hamını səfərbər etmək üçün bir ağız miyoldadı:*

*– Myaooo... Arzular gözəldir... Amma terroristlər var... Nə qədər ki terroristlər var, onlar bu gözəl arzuların həyata keçməsinə mane olacaqlar. Onlar uşaqların, oyuncaqların və pişiklərin yaşadığı ağ evləri yenə də dağıdacaqlar.*

*Bozuş:*

*– Bəs nə edək ki, terroristlər olmasın?!*

*Portağal:*

*– Bəlkə, terroristlərə məktub yazaq?! Qoyaq şüşənin içinə, ataq suya. Üzə-üzə gedib çatsın onlara. Qoy oxusunlar...*

*Bozuş Portağalın dediklərinin bir hissəsi ilə razılaşdı, başqa bir hissəsinə etiraz etdi:*

*– Terroristlərə məktub yazmaq fikri xoşuma gəldi. Amma məktubu şüşənin içinə qoyub suya atmaqla razı deyiləm. Belə məktublar uzun illər sonra tapıla bilər. Onları terroristlər oxumaya da bilər. O vaxtadək onlar nə qədər ev dağıdar, nə qədər uşaq və oyuncaq dağıntılar altında qalar, nə qədər şəhər və kənd yer üzündən silinər.*

*Hamı bir ağızdan dedi:*

*– Bəs onda nə edək?*

*Bozuş ciddi tərzdə dedi:*

*– Düşünməliyik. Görün neçə nəfərik. Mütləq bir yol tapacağıq.*







Hərə oturduğu yerdə donub qaldı. Hər kəs bütün hərəkətini dayandırıb, düşünməyə çalışdı... Ani səssizlik hökm sürdü. Qəfildən Göyərçin qanadlarını çırpdı. Pırrrrr... O havaya qalxdı. Bir dövrə vurub yerə endi və cəsarətlə dedi:

– Mənim əcdadlarım poçt göyərçini olub, məktubu ünvanına çatdırmaqda onlardan mahir poçtalyon olmayıb. Məktubu mən aparacağam.

Bütün suallar eyni idi:

– Necə?

– Necə?

– Necə?

Göyərçin bu işi bacaracağına əmin idi:

– Çox sadə. Məktubu ayağıma bağlayacaqsınız. Qalxacam havaya. Terroristləri tapmağın yollarını bilirəm. Harada dağıntı, təhlükə varsa, onlar oradadırlar. Mütləq tapıb, məktubunuzu çatdıracağam...



## Portağal, Bozuş və oyuncaqlar terroristlərə məktub yazır

Hamı sevinirdi. Portağalın məktub yazmaq təklifi Elzaya maraqlı gəlmişdi:

– Məktub yazacağıq?! Bacararıq?

Portağal:

– Hə, Elza. Əlbəttə, bacararıq. Məktub yazıb, xahiş edək ki, bir də onlar uşaqların, oyuncaqların və pişiklərin yaşadığı evləri dağıtmasınlar.

Elza kədərlə dedi:

– Görəsən, başa düşərlər?

Bozuş inandırıcı tərzdə dilləndi:

– Məncə, hə.

Portağal dediyində iddialı idi. O artıq məktub yazmaq üçün kağız və qələm axtarışına çıxmışdı:

– Kağız və qələm lazımdır. Ey, uşaqlar, haradan tapa bilərik?

Dovşan dedi:

– Orada var. Aylinin dəftərləri və qələmləri. Özüm gördüm. Daşların arasında... Addım ata bilmirəm... Yoxsa gətirərdim.

Bozuş cəld tərpəndi. Dovşanı sakitləşdirdi:

– Sən tərpənmə. Mən bu saat gedib gətirərəm.

...Bozuş sürətlə getdi və bir göz qırpımında qayıtdı. Ağzında qələm və kağız var idi. Gətirdiklərini Portağala uzatdı:

– Al, Portağal, yaz.



Portağal:

– Kim, mən? Mən yazmağı bacarmıram axı. Özün yaz.

– Mən də bacarmıram. Bəs kim yazsın?

Elza dedi:

– Mən yazaram. Aylindən öyrənmişəm. Əlifbanın bütün hərflərini tanıyıram... Aylində bir dənə “Bapbalaca əlifba” var idi. Birlikdə oxuyurduq. Düzdür, bir az səliqəsiz alınacaq, amma, yəqin ki, başa düşəcəklər.

Portağal:

– Elza, sən nə ağıllısan?! Əlbəttə, başa düşəcəklər. Başla yazmağa.

Elza qələmi götürdü. Portağal düşünməyə başladı. O tərəf-bu tərəfə getdi. Pəncəsini gah başına, gah da boynuna apardı. Nəhayət, ciddi tərzdə dedi:

– Elza, yaz. Yaz ki, salam, əziz terroristlər.

Bozuş ortaya atıldı:

– Nə? Əziz? Elza, o sözü poz. Onlar “əziz” deyil. Onlar əziz ola bilməzlər. Yaz: Salam, hörmətli terroristlər.

Portağal Bozuşun sözünü kəsdi:

– Ahha... “Hörmətli”... Onlar hörmətli də deyil... Yaz, Elza: “Salam, terroristlər”.

Dovşan etiraz etdi:

– Portağal, onlara “salam” vermə.

Portağal:









– Yaxşı. Onu da poz, Elza. Yaz: Ey, siz, dünyanın hər tərəfindəki terroristlər, ən qəddar insanlar. Mən – yəni narıncı pişik Portağal, mənim dostum – boz pişik Bozuş, gəlincik Elza, Dovşan və Göyərçin sizdən çox incimişik...

Bozuş yenə etiraz etdi:

– Portağal, “incimişik” çox yumşaq səslənir.

Portağal:

– Yaxşı, yazaq ki, sizdən çox küsmüşük.

Dovşan pambığı tökülmüş qarnını tutub, güclə durub oturdu:

– Yox, Portağal, “küsmüşük” də olmaz. Yaz ki, biz sizə nifrət edirik.

Portağal:

– Uzan, Dovşan, sən durma. Yazarıq. Yaz, Elza. Yaz ki: Terroristlər, ən qəddar insanlar. Mən – yəni narıncı pişik Portağal, mənim dostum – boz pişik Bozuş, gəlincik Elza və Dovşan – biz hamımız sizə nifrət edirik... Çünki siz dinc insanların evini dağıdırsınız. Heç bilirsiniz, sizin dağıtdığınız evlərdə yaşayan uşaqlar bu gecə necə əzab çəkdilər?! Onların necə qışqırdığını eşitdinizmi?! Myaoooo...

Bozuş:

– Elza, myaoooo-nu yazma.

Portağal:

*– Davam edirik: Terroristlər, ən qəddar insanlar! Mən – yəni narıncı pişik Portağal, mənim dostum – boz pişik Bozuş, gəlincik Elza və Dovşan – biz hamımız sizə nifrət edirik... Çünki siz dinc insanların evini dağıdırsınız. Heç bilirsiniz, sizin dağıtdığınız evlərdə yaşayan uşaqlar bu gecə necə əzab çəkdilər?! Onların necə qışqırdığını eşitdinizmi?! Siz gördünüzmü, onlar necə dağıntılar altında qaldılar?! Bildinizmi, Aylin və onlarla uşaq indi xəstəxanadadır?! Axı onların nə günahı var idi?! Hələ oyuncaqları demirəm. Dovşan ayaq üstə dayana bilmir. Qarnı sökülüb, bütün pambıqları tökülüb. Elzanın mavi donunun ətəyi yanıb... Fil, timsah, ayı balası və digərləri hələ də dağıntılar arasındadır... Siz niyə insanların xoşbəxt olmağını istəmirsiniz? Axı siz özünüz də insansınız...*

*Terroristlər, sizdən bütün uşaqlar, oyuncaqlar və heyvanlar adından tələb edirik – bir daha terror hadisəsi törətməyin! Qoyun bu yumru, yaşıl, sevimli planetin hər yerində şən uşaq gülüşləri eşidilsin..*





*Göy qurşağıdır*
*Uşaqların sevinci.*
*Səpələnsin dünyaya*
*Bu sevinc inci-inci.*

*Güllələr ələnməsin,*
*Günəş nuru ələnsin.*
*Onun şəfəqlərilə*
*Dünya nura bələnsin.*

*Gülsün quşlar, böcəklər*
*Çiçəklər, kəpənəklər...*
*Oyuncaqlar şad olsun*
*Dünya SEVGİylə dolsun!*

*İmza:*
*Portağal*
*Bozuş*
*Gəlincik Elza*
*Dovşan və yer üzündə yaşayan*
*milyonlarla uşaq...*



SEVİNC NURUQIZI – uşaq yazıçısı, şair, tərcüməçi, publisist. 2001-ci ildən Yazıçılar Birliyinin üzvüdür. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Mədəniyyət" qəzetində baş redaktorun müavini (2003–2006), "Minamedia" nəşriyyat evində "Cırtdan" və "Ümid" uşaq jurnallarının yaradıcı heyətinin direktoru (2006–2007), İctimai Radionun efirində "Çoxbilmiş" və "Nağıl saatı" verilişlərinin redaktoru və aparıcısı (2006–2007), "Göy qurşağı" uşaq jurnalının redaktoru olmuşdur (2015–2021). Hazırda "Təhsil" və "Aspoliqraf" nəşriyyatlarında böyük redaktor və uşaq ədəbiyyatı şöbəsinin müdiridir.

Qarabağ ağrılarına həsr edilmiş "Qisas" adlı pyesi Ə.Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının (2006), "Gəlinciklər" adlı tamaşası Salyan Dövlət Kukla Teatrının səhnəsində tamaşaya qoyulmuşdur (2006). Azərbaycan, ingilis, Koreya, rus, Belarus, fars dillərində 50-dən artıq kitabı nəşr edilmişdir. Cənubi Koreya Respublikasında üç dildə – Azərbaycan, Koreya və ingilis dillərində "Sürəyyanın izində", Türkiyədə "Melisa" və "Gaga və Hamhamın maceraları", Belarusda "Bazqulaq i parı qoda" adlı kitabları işıq üzü görmüşdür. "Sərçəcik" və "Bahar qız əfsanəsi" operalarının libretto müəllifidir (bəstəkarı Oqtay Rəcəbov).

Müxtəlif illərdə çap olunmuş şeirlərinə, hekayələrinə, poema və dram əsərlərinə görə respublikanın Mədəniyyət və Təhsil nazirliklərinin, bir sıra yaradıcı birliklərin və beynəlxalq təşkilatların mükafatlarını qazanmış, İLESAM-Akçağ 9. Türkiyənin İLESAM-Akçağ Uşaq ədəbiyyatı roman, hekayə və nağıl – 2018 (kitab dosyası) müsabiqəsində roman janrında "Melisa" əsərinə görə birinci yerə (2018) layiq görülmüşdür.

**Müəllif**
Sevinc İmanova Nuru qızı

**Rəssam**
Nigar Mustafayeva

**Dizayner**
Mirəziz Sadıqzadə

**Korrektor**
Günel Məmmədova

Çapa imzalanmışdır 22.02.2022
Format 60x90 $^1/_8$. Fiziki çap vərəqi 11,0.
Sifariş 16.

**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**-nin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ1052, F. Xoyski küç., (121a) 149
e-mail: tahsil_az@yahoo.com
Tel.: (+994 12) 567-81-28/29

tahsilpublishinghouse

www.tahsilpublishinghouse.com